# O QIZIN ADI NƏYDİ

Məhərrəm QASIMLI

Yenə də yadıma düştü o günlər
Xəyalım boyunca ilğımlar[1] axdı
Ömrün dan[2] yerində titrədi yellər
Sinəmdən bir adın dumanı qalxdı

On beşə yetməyə vardı bir azca
Ömür yaz üzünə[3] sabahlamışdı
Özümdən[4] böyüyü sevirdim ancaq
Ürəğim yaşımı qabaqlamışdı[5]

Gəlip getməyinə gendən[6] baxardım
Qaçıp dayanardım məktəp yolunda
Sinifə girəndə çox darıxardım[7]
Heyf[8] mən yeddidəydim sevdiyim onda

Uzaqdan boylanıp[9] onu süzərdim
Yaxına getməyə olmazdı heyim[10]
Qəfil rast gələndə tir-tir əsərdim[11]
Özünü  bilməzdi yazıq ürəyim

Nəfəsi qarışıq duydum səsini
Bir gün qapısında bizim məktəbin
O möcüzə günün zəlzələsini
Ölüncə unudan deyiləm yəqin[12]

Dağıldı uçuldu məktəp elə bil
Divarlar töküldü üstümə sanki
Gördüm ki ayağım yerində deyil
Yer-göy də dayanıb gəstimə sanki

Qızın bu tufanda xəbəri yoxdu
Sakit ötüp[13] keçti oradan bildim
Məktəbin uçulan bir yeri yoxdu
Zəlzələ məndəymiş sonradan bildim

Qızgilin məhləsi ən sevimliydi
Müqəddəs bilirdi könlüm oranı[14]
Şövqünü[15] itirip o küçə[16] indi
Daha istəmirəm görüm oranı

Məktəbi qurtaran təki[17] verdilər
Deyəsən[18] uzağa bir dağ kəndinə[19]
Tanıyanlar məni kefsiz[20] gördülər
Xəlvətcə[21] ağlayıp dözdüm[22] dərdinə

Sonra uzaqlara yol aldı gəmim[23]
Könlüm gah bulandı gah da duruldu
Dağıldı buludum yox oldu çənim[24]
Onu soraklayan[25] yollar yoruldu

Ürək ilk sevgini unudan deyil
Hərdən[26] xəyalımda gedirəm dərsə
Arxaya baxıram otuz neçə il[27]
Tanıya bilmərəm bəlkə də görsəm

Həzin[28] bir nisgildi[29] o şirin yaram
Ağlayan könlümü ovutmuşam mən
Bir şeyi özümə bağışlamıram
O qızın adını unutmuşam mən

Yenə də yadıma düştü o günlər
Dalğın xəyalımı bir nisgil əydi[30]
Ömrün dan yerini titrətdi yellər
Ay Allah[31]o qızın adı nəydi?

*[1]Serap [2]Şafak [3]Yüzüne [4]Kendimden [5]Önüne geçmişti [6]Uzaktan [7]Özlerdim [8]Ne yazık [9]Ayaküstüne dikilmek [10]Gücüm [11]Titrerdim [12]Asla [13]Sessiz gelip geçti [14]Orayı [15]Şevkini [16]Sokak [17]Gibi [18]Bence [19]Köyüne [20]Keyifsiz [21]Gizlice, [22]Katlanmak [23]Gemim [24]Sis [25]Soran [26]Arada bir [27]Yıl [28]Hazin [29]Gam/dert [30]Büktü [31]Allahım*